# Mən Bahadur deyiləm

*Esse*



■ Qərib Mehdi

Buna oxşar bir hadisə ilə xeyli əvvəl üzləşmişdim. Baş verən ağrılı hadisə şəhid şairimiz Nizami Aydınla bağlı idi. Olayın təsirindən çıxa bilmədim, onu yazdım.

Təsadüfdənmi, zərurətdənmi oxşar olay gözəl şairimiz Bahadur Fərman qiyafəsində müəyyən fərqlə yenidən təcəlla etdi. Baş verən ağrılı halı yaşamaq olduqca çətin idi. Yalnız onu qələmə almaqla, Bahadur haqqında maraqlı, heyrətli bir xatirəyə can verməklə yüngülləşmək olardı. Bir üzü kədərli kölgə, bir üzü nikbin işıq olan bu esseni yazmaq qərarına gəldim.

Şəmkirdə insanlığı şairliyindən, şairliyi insanlığından üstün olan bir qələm dostumuz - Məzahir Hüseynzadə yaşayır. Gəncədə hamı Məzahirin dostudur. Ancaq, onun Bahadur Fərmanla dostluğu ümumi dostluğumuzun üst qatında xüsusi yer alır. Onlar vaxtaşırı bir-birləri ilə ya telefonla soraqlaşır, ya da maşınlarına, ayaqlarına zəhmət verib ziyarətləşirlər. Bahadurun ürək ağrıları tutandan bəri dostlar arasında hal-əhval tutmaq daha da intensivləşir. Bu ünsiyyətdə xüsusilə telefon əlaqəsi sıx-sıx baş tutur. Mənəvi bağlantı tez-tez telefon bağlantısını işə salır.

Heç bilməzdim, sən demə, mənim səsim xeyli dərəcədə Bahadurun səsini andırırmış. Bəlkə də, belə deyil. Məzahir dostları arasında ən çox Bahadurun səsini arayırmış. Kimliyindən asılı olmayaraq zəng eləyənin Bahadur olduğunu təsəvvür edirmiş.

Sıx-sıx olmasa da, hərdən mən də Məzahiri yad edirdim. İlk səs oxşarlığını təsadüf saydım:

- Məzahir, "Ədəbiyyat qəzeti"ndə çıxan şeirlərini oxudum, xoşuma gəldi. Səni ürəkdən təbrik edirəm!

Məzahirin cavab səsi məni çaşdırdı:

- Sağ ol, Bahadur! Diqqətinə görə minnətdaram. Əsas sənsən! Özünü necə hiss edirsən? Bu günlərdə mütləq sənə baş çəkəcəyəm.

Elə bilirdim Məzahir məni səsimdən tanımış olar. Ona görə də adımı bildirməmişdim:



- Məzahir, mən Bahadur deyiləm, mən Qərib Mehdiyəm.

Məzahir bir az tərəddüddən sonra səhvini düzəltdi:

- Bağışlayın, Qərib müəllim. Səsiniz oxşadığı üçün elə bildim zəng eləyən Bahadur Fərmandır. Bir də ki, məni qınamayın, son vaxtlar mən Bahadurdan başqa heç kimdən zəng gözləmirəm. Bir-birini başa düşənlərin dərdləşməsinə, fikir bölüşməsinə həmişə ehtiyac var.

Bu səhvsalmanı təsadüfün ayağına yazdıq, çıxıb getdi.

Günlərin birində yenə Məzahirə zəng edəsi oldum. O, yeni nəşr olunmuş kitabını mənə də göndərmişdi. Mən də oxuyub onun axtarışlı qələmindən razı qalmışdım. Zəng edib təbrik eləmək lazımıydı:

- Məzahir, yeni kitabını acgözlüklə oxudum. Təbrik edirəm, uğurlarına sevinirəm!

Yenə qarşı tərəfdən məni təəccübləndirən cavab gəldi:

- Sağ ol, Bahadur. Mən elə belə də gözləyirdim. Səhhətin necədir?

Mən gülümsünüb Məzahiri təkzib etdim:

- Məzahir, mən Bahadur deyiləm. Mən...

- Bildim!.. Bildim!.. Özümdən asılı olmayaraq, mən sizi Bahadurla dəyişik salıram. Vallah, səsiniz seçilməz dərəcədə oxşardır. Təqsir oxşarlıqda, eyniyyətdədir. Bağışlayın, Qərib müəllim.

Onun səmimiyyətinə şübhə eləməyə əsasım yox idi. Məzahirə nə vaxt zəng çalırdımsa, o, yenə məni Bahadur zənn edirdi. "A kişi, mən Bahadur deyiləm, mən Qəribəm" aydınlaşdırmasından sonra üzrxahlıq başlayırdı.

Günlərin birində Bahadur Fərmanın qəlb evinə daxil olan amansız ölüm onu doğmalarından ayırıb daimi mənzilinə apardı. Bəd xəbər ayaqlı olar. İlk növbədə bu ağır xəbəri yaxın ətraf aldı. Xəbərləşmə dalğa kimi yayılırdı. Çətin də olsa, Məzahirə telefon açdım. Amma bu qara xəbəri necə deyəcəkdim? Məsələ bundaydı. Kəsdirə bilmirdim. Birdən ağlıma məni nisbətən yüngülləşdirən bir fikir gəldi: "Bəlkə, artıq bu xəbəri Məzahir bilir?..". Tərəddüdlə zəng etdim:

- Məzahir, sənə deməli, sözüm var...

Qarşı tərəfdən Məzahirin nikbin səsi eşidildi:

- Sənə qurban olum, Bahadur! Nə yaxşı sən varsan!..

Bu dəfə də məni dostu ilə səhv salan Məzahir, Bahadurun həyatda var olmasından ürək dolusu danışırdı. Donub qalmışdım. Ona necə cavab verməliydim? Yenədəmi səhvini düzəltməliydim? Yox, buna gücüm çatmazdı. Çatmadı da. O isə danışmağındaydı:

- Nə yaxşı bu həyatda Bahadur var, yoxsa sözümüzü kimə deyərdik? Bahadur, Bahadur, niyə cavab vermirsən, Bahadur?

Ehtiyatlanırdım. Cavab verincə nə baş verəcəyindən əndişələnirdim. Bu üzgün məqamın ən mümkün cavabı susmaq idi. O, Bahaduru çağırır, mən isə sükuta qərq olmaqla Bahaduru "yaşadırdım..."".

29 aprel 2017

WWW.KASPI.AZ